# Qurban bayramı




Qurban bayramı - İslam aləmində ən müqəddəs bayramlardan biridir. Bütün müsəlman aləmində hər il hicri təqvimi ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Mərasimlərdə qoyun, dana və ya dəvə kəsilir. Qurbandan (niyyətdən asılı olaraq) bir hissə pay göndərilir, digər hissələr isə ehtiyac sahiblərinə paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə dilənçi və kasıblar bayram günü ac qalmasınlar deyə bu gün mərasimlərə dəvət olunurlar.

Qurban bayramı ən qədim bayramlardandır. Dini qurban kəsmə mərasimi İslamdan da əvvəl mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq və s. nəzərdə tutulurdu.

Hicrinin (Məhəmməd Peyğəmbərin Mədinəyə köçməsinin) ikinci ilindən sonra dini qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yarandı. Belə ki, dini qurban kəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi.

Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr edir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır idi, İsmayıl özü də qurban olmağa razılaşır. Bu haqda Quranda yazılmışdır.

Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim Peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurbanlıq bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı da yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil!

Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı Azərbaycanda da dövlət səviyyəsində bayram edilir.

*Onlar Vətən uğrunda döyüşmüşlər*

# Biz sizi unutmadıq

***İyun ayında şəhidlərimizdən Sahil Şirinov, Azər Musazadə və Ruslan İdrisovun doğum günləri olmuşdur.***



**Sahil Həsrət oğlu Şirinov** - 1992-ci il 24 iyunda Qəbələnin Bum qəsəbəsində doğulmuşdur.

2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxi olmuş, 2014-cü ildə motoatıcı tağım komandiri ixtisası üzrə məktəbi bitirərək leytenant hərbi rütbəsi almışdır.

Sahil Şirinov 2016-cı ilin aprel ayında Azərbaycan - Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhidimiz doğulduğu kənddə dəfn olunmuşdur.

O, Prezident İlham əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif olunmuşdur.

* * *

**Azər Çingiz oğlu Musazadə** - 1998-ci il 25 iyunda rayonumuzun Şəfili kəndində doğulmuşdur- .Orta təhsilini Çarxana kəndində almış, Azərbaycan Texniki Universitetində ali təhsil almışdır.2019 - 2020-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci il sentyabrın 27-dən etibarən Azər Musazadə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Oktyabrın 13-də döyüş tapşırığını yerinə yetirərkən həlak olmuşdur.

Şəhid Azər Musazadə "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. O, həmçinin "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalı ilə də təltif olunmuşdur.



Allah şəhidlərimizə rəhmət eləsin.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Əfsanəvi qəhrəman

Mübariz Ağakərim oğlu İbrahimov 7 fevral 1988-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açıb. Əslən Lerik rayonundan olan Mübariz 1994-cü ildə şəhid M. Piriyev adına Əliabad kənd orta məktəbinə daxil olub, 2005-ci ildə həmin məktəbi bitirir. Mübariz həmin ildə də hərbi xidmətə çağrılmışdır.

Hərbi xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib.



Hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsi ilə başa vurur. Bir müddət MMC-də mülki işlərdə işləyir. 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində çalışmağa başlayır.

Xalqımızın igid oğlu 18 iyun 2010-cu il tarixdə gecə saat 2330 radələrində təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Mübariz Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitlərini gözlənilmədən birinci həmlədə məhv edir və düşmənin çoxlu silahını ələ keçirir. Mənfur düşmənin öz silahları ilə onları məhv etməkdə davam edir. 5 saat düşmənlə döyüşür. Bu təkbaşına rəşadətli döyüşdə misilsiz qəhrəmanlıq göstərir. Düşməni ağır itkilərə məruz qoyur. Onların zəif cinahlarını üzə çıxarır.

Qəhrəman Mübariz səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.

Həmin ildə Prezident İlham Əliyev Mübarizf İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalamışdır.

Mübariz İbrahimovun meyidi 141 gün Ermənistanda qalmışdı. 18 iyun 2010-cu ildə şəhid olub.

6 noyabr 2010-cu ildə Beynəlxalq Qızıl Xaç komitəsinin vasitəçiliyi ilə meyidi Azərbaycana verilmişdir.

Həmişə xalqının əziz xatirəsində yaşayacaq Milli Qəhrəman Mübariz İbrahimov fəxri xiyabanda dəfn olunmuşdur. Ruhu şad olsun.

**Niyazi ZÖHRABOV,**
**Xırxatala kəndi.**

# Qürur və məğrurluq təcəssümü

**Zamanın uşaqlığa "travması"...**

Uşaqlığın ən gözəl xüsusiyyəti o dövrün qayğısız olması; ətrafımızdakı hər şeyə gözəllik kimi baxması, pisliklərin, acıların, çətinliklərin yalnız və yalnız oxuduğu və dinlədiyi nağıllarda olmasını, qəhrəmanlıqların - igidlərin isə bu nağılların, eləcə də dastanların içində mövcudluğunu düşünməsidir. Körpələr öz körpə düşüncələrilə böyük istəklərin reallığı arzusunda olarlar. Kimisi nağıl qəhrəmanlarına bənzəyərək onların oxşarı olmaq üçün yollar "araşdırar", kimisi də özünəməxsus adlı qəhrəmanlar "olar" və hər uşaq oyununda bir qəhrəmanın həyatını əks etdirər, bir növ yaşayar. Böyüdükcə bu arzuların da nağıla çevrildiyini bilərək, həyatın iç dünyasını yaşamağa məcbur olarlar. Və bu qəhrəman obrazların onların qəlbində yaşadığı dönəmlər onların yeniyetməlik çağlarına, şəxsi həyatlarına dərin iz buraxar. Gənclik illərində və ömür səhifələrində bu düşüncələr çox zaman "kompas" rolu oynar.

Yaşadığımız zamanın, əsrin orta yaş dövrünə qədəm qoyanların həyatı isə tamamilə başqa yönəmdədir. Ölkəmizdə baş verən siyasi hadisələr onların nağıl dünyasını "darmadağın" etmiş, həyatın acı həqiqətləri hər kəsin həyatına müxtəlif təəssüratlar bəxş etmişdir. Mənasının dərinliyini anlamadan yaddaşlarında yeri olmayan bəzi məfhumların həyatlarına daxil olması və bu başlıq altında yaşam mücadiləsi onların uşaqlıq xoşbəxtliyini alt-üst etmişdi. Azərbaycanın dilbər guşəsi sayılan Qarabağ bölgəsinin hərtərəfli faydalı və qiymətli ərazisini özününküləşdirmək, xalqın milli sərvətini zorla əlindən almaq üçün erməni qonşularımız min bir hiylə ilə torpaqlarımıza soxuldular və onların törətdikləri faşizmin əsil təcəssümü sayılan hərəkətləri neçə-neçə ocağı söndürdü, neçə-neçə nəslin soykökünə son qoydu. Diri-diri soyulmalar, torpağa dəfn olunmalar, yandırmalar, əzizlərinin gözü qarşısında amansız işgəncələr, qətllər, doğmaları bir-birinə öldürtmək və s. Həmçinin insanların ac-susuz meşə və dağlarda şaxtadan donmaları, ana bətnindəki körpələrin gözü önündə qətlə yetirilməsi o dövrün bir çox qarabağlı uşaqlarının dəmir yaddaşına həkk olunmuşdu .



**Ən ağır məfhum**

Taleni Tanrı yazar əzəldən... O yazını insan anbaan yaşayaraq insanlaşar... Yaşadığı ömürlə yetkinləşər, hər kəs də öz gücünə, əzminə görə yaşam qazanar.

Cəmi 10 yaşına kimi yaşadığı ömür uşaqlıq xatirələrində bir əsrə bərabər bir yaşam olub Zaurun. Qədim Qarabağ torpağının əsrarəngiz gözəllikləri, isti bir ailə ocağı başında əzizləri ilə birgə yaşayar, uşaqlığını o dövrə məxsus tərzdə xoş keçirərdi. Halal zəhmətlə, həm də yaşadığı məkanın adət-ənənələri ilə birgə böyüyərdi. Qəlbinin də özünəməxsus arzuları var idi. Hərdən birgə yaşadıqları erməni mənfurlarının fitnə və xain hərəkətləri haqda söhbətlər eşidər və öz uşaq təxəyyülü ilə o söhbətlərin gələcəkdə doğru-düzgün cavablandırılmasını düşünərdi...

1988-ci ildən başlayan mübahisəli söhbət və hadisələr hər bir qarabağlı kimi onun da həyat arzularını çiliklədi...

1990-cı il hadisələri 10 yaşlı uşağın adına bir söz - titul əlavə etdi - qaçqın... və ya köçkün... O illərin həyəcanı və sərgərdan həyat yönümü bu sözün ağırlığını dərk etməyə imkan vermirdi. Həmçinin qaçqın və məcburi köçkün adı ilə ölkənin müxtəlif bölgələrinə "səpələnən" insanlar torpaq uğrunda gedən mübarizəni düşündükləri üçün, həmçinin müvəqqəti öz evindən tərk edildiyi inamı ilə bu sözün mənasının dərinliyinə vara bilməzdilər. Zaurun isə... o illərin hadisələri, eşitdikləri, gördükləri yaddaşında bir film kimi... Xüsusilə Qarakənd-

**(Ardı 7-ci səhifədə).**